*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 yanvar 2018-ci il № 7 (2223) Qiyməti 25 qəpik


## Qələbə qazanacağımıza əminik!



*Nə vaxtsa oxuduğum bir fikir heç zaman yadımdan çıxmayacaq: Vətən əsgərin ürəyindən başlayır. Bu, Vətənə sevgidi. Hamımız Vətəni belə sevirik. Əsgər ürəyindən başlayan Vətəni qorumaq, onun keşiyində dayanmaq qədər gərəkli bir peşəni seçənlərə həmişə həsəd aparırdım. Ulu öndərimiz Heydər Əliyevin bir kəlamı mənim də düşüncələrimə hopmuşdu: "Müstəqil Azərbaycanda hər peşə şərəflidir, ancaq Vətəni qorumaq peşəsi ən şərəfli peşədir...". Bu kəlamın mahiyyətini həqiqi hərbi xidmətdə olanda daha əhatəli şəkildə dərk etdim. Döyüş növbətçiliyinə gedəndə mən də, əsgər yoldaşlarım da bu kəlamı xatırlayırıq. İndi də belə xidmət edirəm.*

Müharibənin nə olduğunu, hansı ağrılar yaşatdığını uşaqlığımdan bilirəm. Ermənilər Azərbaycandan torpaq iddiasına düşəndə atam da torpaqlarımızı müdafiə edənlərin sırasındaydı. Neçə-neçə döyüşlərdə iştirak etmişdi. Qızılhacılı, Ölü dərə istiqamətlərində ağır döyüşlərdən keçmişdi. Döyüşlərin birində şəhid oldu. 1992-ci ildə. Onda yeddi yaşım vardı. Şəhidliyin nə olduğunu dərk etməsəm də, atamı tanıyanların, qohum-əqrəbalarımızın üzündə kədər görürdüm. Onu dərk edirdim ki, atam daha qayıtmayacaq. Kimsə saçlarımı oxşayıb "Atan daha qayıtmayacaq..." - dedi. "Niyə?" - qəhərlə soruşdum. "Şəhid oldu..." - dedi. Böyüyəndə hərbçi olacağımıza, atamın yolunu davam etdirəcəyimizə and içdik. Mən də, qardaşım Ramin də...

Həqiqi hərbi xidmətimizdən sonra yenidən orduya qayıtdıq. İkimiz də hərbçiyik. İkimiz də ön xətdə xidmət edirik. Müharibə başa çatana kimi, torpaqlarımız işğaldan azad edilənə kimi hərbçi mundirini əynimizdən çıxartmayacağıq.

2016-cı ilin aprel döyüşləri ordumuzun gücünü, qüdrətini təsdiqlədi. Təsdiqləndi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Aprel döyüşlərində şəhid olanlarımızın dəfnində şəhid oğullarının qürurunu gördük. Uşaqlığımı xatırladım. Əminəm ki, bu uşaqlar da böyüyəndə hərbçi olacaq, atalarının arzuladığı əsgər olacaq, Vətənin keşiyini çəkəcəklər.

Son illərdə hərbi sahədə həyata keçirilən irimiqyaslı təlimlər göstərdi ki, Azərbaycan Ordusu Ali Baş Komandanın bütün əmrlərini yerinə yetirməyə qadirdir. Bunu torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistan da bilir. Ermənistan onu da bilir ki, əgər sülh danışıqları baş tutmasa, Azərbaycan Ordusu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini döyüşlə həll edəcək. Azərbaycan Ordusunun bütün müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları adından, əsgərləri adından əminliklə deyirəm ki, döyüşlər bizim qələbəmizlə başa çatacaq, 2016-cı ilin aprel döyüşlərində qazanılan qələbə Böyük Qələbəylə tamamlanacaq. O günə az qalıb, hər birimiz Ali Baş Komandanın əmrinə hazırıq!..

**Çavuş**
**Ruslan BUDAQOV,**
**"N" hərbi hissəsi**



Mühəndis-istehkamçılar təlimdə

3-cü səhifədə



Gənclər siyasəti dövlətin əsas istiqamətlərindəndir

4-cü səhifədə



Məktəbli gənclərimizin düşüncələri qürurvericidir

5-ci səhifədə



Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

7-ci səhifədə

# Ali Baş Komandanın tapşırığı ilə cəbhə xəttində yerləşən hərbi hissələrdəki vəziyyət yoxlanılıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, prezidentin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov və Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub.

Səfər zamanı qoşunların döyüş hazırlığının vəziyyəti, şəxsi heyətin xidməti və sosial-məişət şəraiti yoxlanılıb, eləcə də hərbi qulluqçularla söhbətlər aparılıb, birgə nahar təşkil olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



*Nümunəvi xidmət*

## "Ya şəhid olacağıq, ya da qəhrəman"

*Səngər mərdlərin, cəsurların, qorxmazların yeri, möhkəm iradə, Vətənə sevgi deməkdir. Bu sevginin işığında Vətənin keşiyində dayanan hərbi qulluqçularımızla söhbətləşirik.*

"Əgər insan Vətənini sevmirsə, doğulduğu torpağının hər qarışına vurğun deyilsə, hərbçi ola bilməz" deyən kapitan İlqar Kərimovla səngərdə tanış olduq. Naxçıvan Muxtar Respublikasının Qıvraq qəsəbəsində hərbçi ailəsində dünyaya göz açan zabitimizin həyatına nəzər salsaq, vətənpərvərlik ruhunda böyüdüyünü görərik. Rəhmətlik atası gizir Valeh Kərimovun həyatı və öz övladları ilə bölüşdüyü müharibə hekayələri bu ailədə böyüyən İlqarın da döyüşkən, mübariz insan kimi formalaşmasına səbəb olub.

Tez-tez atasından hərbçilərin seçilmiş insanlar olmaları, onların cəsarətləri, ölümün gözünə dik baxmaları barədə eşitdikləri İlqarı, həmçinin qardaşı Əlini də hərbçi olmağa ruhlandırıb.

İlqar 2003-cü ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olur. Vətənimiz Azərbaycana layiqli zabit olmaq üçün hərbi biliklərə həvəslə yiyələnir.

"Atamın əynimə qat-qat böyük olan hərbi formasını dəfələrlə geyinərdim. Papağını başıma qoyub özümü hərbçi kimi hiss edərdim. Nə vaxtsa səkkizguşəli ulduzları çiynimdə daşıyacağımı arzu edərdim. Hərbi liseyə daxil olduğum gün əynimə hərbi forma geyindim. Bu, həyatımın ən unudulmaz anı oldu. Həmin formanı bu gün də əvəzsiz bir xatirə kimi evimizdə saxlayıram".

Azərbaycan Ordusunda xidmətdə olan hər kəsin Allahdan bir vergi payı var. O pay ki, hərbçilər Vətənə bir addım yaxın olurlar, torpaqla bütövləşmək üçün şəhidliyə də hazırdırlar. "Ya şəhid, ya da qəhrəman olacağıq!" - amalı ilə xidmət edirlər.

"Qardaşınız da ordu sıralarındadır?" sualına təcrübəli zabit belə cavab verir.

- Atama "Uşaqlar necədirlər?" sualını verəndə, "Vətənə oğul böyüdürəm" cavabını verərdi, - zabit deyir. - Böyüyüb Vətən sevgisini dərk etdikcə atamın nə demək istədiyini anladıq. Və müəyyən yaş həddinə çatanda kiçik qardaşım Əliyə dedim ki, Vətənə xidmət vaxtıdır. O da cavabında "sən get, mən də gələcəm" dedi. Sözünə sadiq oldu və hazırda o da hərbçidir.



- Bəs hərbi xidmətdə kimdən nə öyrəndin?

- Mən hərbçi olmaq istəyəndə ən böyük dəstəkçim ailəmiz oldu. Hərbi liseydə oxuyarkən bölük komandirim Anar Mirzəliyev mənə hərb sənətinin sirlərini öyrətdi. Əvvəlcə sıra addımlarından başlamışdıq, sonra silahlara keçdik (Əlindəki silahı göstərib gülümsəyir). İlk günlər silahın hansı gücə malik olduğunu dərk etmək o qədər asan deyildi. Gördüyünüz silahın ən vəfalı dostum olduğunu anladım. O məni ölümdən, düşməndən qoruyur.

Vətənpərvər zabit tabeliyində olan hər bir gəncin də nizam-intizamlı, qorxmaz, cəsur Azərbaycan əsgəri olduğunu bildirərək söhbətinə davam edir:

- Bu gün bizimlə çiyin-çiyinə Vətənin keşiyində duran, sabah Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan azad etməyə hazır olan bacarıqlı əsgərlərimiz var. Ehtiyata buraxılan hər kəs ehtiyac olarsa, - güman ki, buna ehtiyac olmayacaq - döyüşlərin sırasında olacağına söz verib. Düşmənimiz də dərk etməlidir ki, kiminsə torpağında gözümüz yoxdu, ancaq öz tarixi torpaqlarımızı işğaldan azad etmək əsas amalımızdır. Mən də bir komandir kimi söz verirəm ki, Ali Baş Komandanın bircə əmriylə torpaqlarımızı azad edəcəyik....

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu", foto C.CƏFƏROVUNDUR**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 25-də Goranboy rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndə Anjey Kaspşik, onun səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç keçiriblər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*26 yanvar 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 116 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şıxlar, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## "Ermənistan tərəfinin təxribat məqsədilə yaydığı xəbərin heç bir əsası yoxdur"

Cəbhə xəttində guya gərginliyin yaranması, Azərbaycan tərəfinin itkilər verməsi barədə Ermənistan tərəfinin təxribat məqsədilə yaydığı xəbərin heç bir əsası yoxdur.

Bu fikir AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildirilib.

"Ermənilər o dərəcədə qorxurlar ki, hər tərəfdə onların gözlərinə Azərbaycan əsgəri görünür və bundan da xoflanırlar.

Ordumuz atəşkəs rejiminə tam riayət etməklə düşmənin istənilən hərəkətini nəzarətdə saxlayır və bölmələrimiz heç bir itki verməyib", - deyə nazirliyin məlumatında qeyd edilir.

# Naxçıvan qarnizonu: 2017-ci ilin hazırlıq planında göstərilmiş tədbirlər tam yerinə yetirilib

*Ötən il Silahlı Qüvvələrdə döyüş hazırlığı, intizamın nəticələrinə görə Əlahiddə Ümumqoşun Ordu birinci yeri tutub.*



AZƏRTAC xəbər verir ki, bu faktlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığına əsasən, Naxçıvan qarnizonu qoşunlarında 2017-ci tədris ilində döyüş hazırlığının, döyüş və döyüşə hazırolmanın, nizam-intizamın vəziyyətinə dair keçirilən müşavirədə səsləndirilib.

Əvvəlcə muxtar respublikada ordu quruculuğundan bəhs edən "Ordumuzun təməl ünvanı Naxçıvan" adlı film nümayiş etdirilib.

Naxçıvan qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev 2017-ci tədris ilində qoşunlarda döyüş hazırlığının, döyüş və döyüşə hazırolmanın, nizam-intizamın vəziyyətinə dair məruzə edib.

"Təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Silahlı Qüvvələrimiz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında dünyanın qabaqcıl, regionumuzun isə lider orduları səviyyəsinə yüksəlib", - deyən Kərəm Mustafayev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun yüksək diqqət və qayğısı sayəsində uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordu bu gün yerləşdiyi coğrafi mövqeyə, kontingentinə və döyüş qabiliyyətinə görə keçmiş SSRİ və indiki MDB ölkələrinin silahlı qüvvələri səviyyəsində analoqu olmayan statusa malikdir.

"Ali Baş Komandan İlham Əliyevin 2017-ci il yanvarın 11-də Naxçıvana səfəri zamanı Əlahiddə Ümumqoşun Orduda əsgər yataqxanasının və əsgəri-məişət kompleksinin açılışını etməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin rəhbərliyi və Azərbaycan Respublikası Müdafiə nazirinin iştirakı ilə iyunun 15-də Azərbaycan-Türkiyə "Birgə əməliyyat-taktiki təlimi"nin və oktyabrın 18-də Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25 illiyinə həsr edilmiş hərbi paradın keçirilməsi ötən ilin ən yaddaqalan tədbirləri olub", - deyən Kərəm Mustafayev, 2017-ci ildə motoatıcı, tank, artilleriya, xüsusi təyinatlı bölmələrin əsas fənlər üzrə döyüş hazırlığında saxlanılması və öyrədilməsi tapşırıqlarının uğurla yerinə yetirildiyini, bölmələrin döyüş potensialı və hərbi qulluqçuların praktiki vərdişlərinin təkmilləşdirildiyini vurğulayıb.

Naxçıvan qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev qeyd edib ki, 2018-ci tədris ilində də Naxçıvan qarnizonunun qoşunları qarşılarında duran bütün tapşırıqları layiqincə yerinə yetirərək döyüş qabiliyyətini yüksəldəcək, Naxçıvan Muxtar Respublikasının müdafiə və mühafizəsini daha da təkmilləşdirib, onun təhlükəsizliyinə qarşı yönəlmiş hər hansı bir təhdidin qarşısını qətiyyətlə alacaqdır.

Məruzə ətrafında müzakirələr zamanı 2018-ci tədris ilində qarşıda duran vəzifələrlə bağlı təkliflər dinlənilib.

Sonda döyüş və ictimai-siyasi hazırlıqda yüksək nəticələr əldə etmiş hərbi qulluqçular mükafatlandırılıb.

# Ermənistan prezidentinə sərt cavab

*Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri, qurumun vitse-prezidenti Səməd Seyidov yanvarın 24-də Assambleyanın iclasında çıxış edən Ermənistan prezidenti Serj Sarkisyana sərt cavab verib.*

AZƏRTAC xəbər verir ki, Səməd Seyidov Ermənistan prezidentinin çıxışının yalanla dolu olduğunu, onun dünya ictimaiyyətini aldatdığını bildirib. Nümayəndə heyətimizin rəhbəri Ermənistan dövlətinin başçısına müraciətlə deyib: "Siz Azərbaycana qarşı müharibənin lideri olmusunuz. Niyə çıxışınızda Xocalı faciəsindən danışmadınız? Xocalıda uşaqlar, yaşlı insanlar, qadınlar daxil olmaqla 600-dən çox insan ermənilər tərəfindən öldürülüb. Niyə etnik təmizləmə barədə danışmadınız? Siz hazırda beynəlxalq ictimaiyyəti aldatmağa çalışırsınız. Nə bu təşkilatın, nə də digər təşkilatların qətnamələrini yerinə yetirirsiniz. BMT, Avropa İttifaqı, Avropa Şurası, digər təşkilatlar Azərbaycan torpaqlarının işğal olunduğunu bəyan edib. Siz bu təşkilatlardan heç kəsi qəbul etməyə hazır deyilsiniz".

*Döyüş hazırlığı*

# Mühəndis-istehkamçılar təlimdə

*Müasir döyüşdə qalib gəlmək bütün qoşun növlərinin birgə səyi nəticəsində mümkündür. Bu baxımdan müasir ümumqoşun döyüşünün mühəndis təminatı da müvəffəqiyyətin əldə edilməsi üçün vacib amillərdəndir. Mühəndis təminatının tələbləri əməliyyatın məharətlə aparılması, düşmənin fəaliyyətinin çətinləşdirilməsi və qarşı tərəfə itkilərin verilməsi üçün əsas rol oynayır.*





Əlahiddə Ümumqoşun Ordunun mühəndis-istehkam bölmələrinin yerinə yetirdikləri tapşırıqların xüsusiyyətləri nəzərə alınaraq onların texniki baxımdan daha da təkmilləşdirilməsi üçün müasir mühəndis-istehkam texnikaları hərbi qulluqçularımızın ixtiyarına verilib. Silahlanmada mövcud olan mühəndis maneələqoyma maşını və digər mühəndis texnikaları taktiki-texniki xüsusiyyətlərinə görə yüksək göstəricilərə malikdir.

Mühəndis təminatı tapşırıqlarının yerinə yetirilməsi zamanı şəxsi heyətin mənəvi-psixoloji dözümlülüyünün artırılması da əsas məqsədlərdən hesab olunur. Bu dəfə də ən çətin iqlim və relyef şəraitində əməliyyatın mühəndis təminatının yerinə yetirilməsi üzrə tapşırıqların məşq etdirilməsi məqsədilə bölmələrdən birinin şəxsi heyəti tam təchizatla təlim mərkəzinə çıxarılıb.

Döyüş hazırlığı planına uyğun olaraq mühəndis-istehkam bölməsi vacib döyüş tapşırıqlarının yerinə yetirilməsi üzrə praktiki məşq etdirilir. Bu dəfəki məşğələdə manqa tərkibində xüsusi təchizatla təmin olunmuş mühəndis-istehkam qrupu tərəfindən ərazidə mühəndis kəşfiyyatının aparılması tapşırığı icra olunur.

Zabit Mübariz Mürsəlov bildirdi ki, məşğələdə manqa heyətlərə ayrılır, manqa komandirinin rəhbərliyi altında hər heyət nəfəri öz tapşırığını yerinə yetirir. "Təlim mərkəzində keçirilən məşğələdə qarşıya qoyulan məqsəd çıxarılması və zərərsizləşdirilməsi mümkün olmayan tank və piyada əleyhinə minaların aşkar edilərək məhv edilməsidir. Manqa praktiki olaraq ərazinin kəşfiyyatını aparır, aşkar olunmuş sursatların partlayış üsulu ilə məhv edilməsini yerinə yetirir. Bu məşğələni də uğurla başa vurduq. Manqa komandiri kiçik çavuş Malik Babayev, istehkamçı əsgərlər Yusif Əliyev, Qurban Bəylərov, Rauf Zeynalov, Namiq Novruzov, Saməddin Məmmədov və başqaları fərqləndilər. Təbii ki, bu kimi məşğələ və təlimlər şəxsi heyətin döyüş qabiliyyətinin artırılmasında mühüm əhəmiyyət kəsb edir."

Bir məqamı da qeyd edim ki, şəxsi heyətin istənilən şəraitdə mühəndis təminatı tapşırıqlarını yerinə yetirən zaman döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə Əlahiddə Ümumqoşun Ordunun mühəndis-istehkam bölmələri döyüş atışlı taktiki, eləcə də taktiki-xüsusi təlimlərdə müntəzəm iştirak edir. Plana uyğun olaraq ən yaxşı mühəndis-istehkam manqası, taqımı və bölüyü adları uğrunda yarışlar keçirilir. Əldə olunan müsbət nəticələr onu deməyə əsas verir ki, müasir mühəndis texnikaları ilə təchiz edilən Əlahiddə Ümumqoşun Ordunun mühəndis-istehkam, maneələqoyma və maneəqurma, mühəndis-yol bölmələri ən çətin iqlim və relyef şəraitində istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır.

**Leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi, fotolar əsgər Rauf ƏLƏSGƏROVUNDUR**

2 Fevral Gənclər Günüdür

# Gənclər siyasəti dövlətin əsas istiqamətlərindəndir

Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Sağlam gənclik sağlam nəsil deməkdir. Yaxın tarixi keçmişimizdə - Sovet dönəmində bu quruluşa xas stereotiplərə görə cəmiyyətdə mövqe sahibi olmaq, dövlət strukturlarında çalışmaq üçün bəlli bir yaş həddini keçməli idin. Belə bir quruluşda gəncliyin inkişafından və cəmiyyətdəki rolundan danışmağa dəyməzdi. Lakin Azərbaycan tarixi müstəqilliyini bərpa etdikdən, xüsusən də xalqın təkidli tələbi ilə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması naminə məqsədyönlü islahatlara başlandı.

1996-cı il fevralın əvvəllərində Azərbaycan gənclərinin ilk forumu keçirildi və bununla da gəncliyin inkişafına dəstək dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Ulu Öndərin 1997-ci ildə imzaladığı fərmanla fevralın 2-si ölkədə Gənclər Günü kimi təsbit olundu.

Son illər Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir. Ulu öndər Heydər Əliyevin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Prezidenti İlham Əliyev bu meyarları nəzərə alaraq ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir.

Hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin edirdi. Həmin sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri öz əksini tapmışdır. Bu istiqamətlər tamamilə xalqımızın milli mənafelərinin inkişafına yönəldilərək gəncləri ideya müəllifi olmağa səsləyirdi. Yəni, hər bir gənc fərdi qaydada özünü idarəçi kimi yetişdirməli, daim təşəbbüskarlıq göstərməlidir.

"2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsidir. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib.

Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. Qürurlu haldır ki, xalqımızın qəhrəmanlıq tarixini yazanlar da onlardır. Hər zaman adlarını fəxrlə çəkdiyimiz Mübariz, Fərid, Murad, Samid, Ruhin, Elnur, aprel döyüşlərinin onlarla qəhrəmanı bu gün Azərbaycanımızda yüzlərlə, minlərlədir.

2017-ci il sentyabrın 15-də Prezident İlham Əliyevin sərəncamı ilə növbəti "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq edildi. Bu proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi və dəyərləndirilməsi, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri edir. Dövlət Proqramının əsas məqsədi isə respublikamızda gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsini təmin etməkdir. Bir sözlə, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətində gənclik mövzusunun aktuallığı bir daha aydın təsbit olunur.

Bəli, gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Bu dövrün hər anından səmərəli istifadə etmək gərəkdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Ümummilli lider Heydər ƏLİYEV:

*Azərbaycanın bugünkü gəncləri indi özlərini müstəqil Azərbaycan dövlətinin gəncləri kimi hiss edirlər. Onların əksəriyyəti vətənpərvər gənclərdir. Biz də çalışmalıyıq ki, bu gənclərin hamısı vətənpərvər olsun və Vətənə xidmət etməyi özlərinin ən şərəfli vəzifəsi hesab etsinlər.*



## Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun 43 nəfərdən ibarət qrupu plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

## "Ermənilərin Talış kəndində binaların tikilməsi barədə məlumatları daxili auditoriyaya hesablanıb"

*Talış kəndində yaşayış binalarının inşa edilməsi ilə bağlı Ermənistan tərəfinin yaydığı xəbər məhz daxili auditoriyaya hesablanıb və prezident seçkiləri ərəfəsində təbliğat xarakteri daşıyır.*



Bu sözləri AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən deyiblər.

Nazirlikdən bildiriblər ki, 2016-cı ilin aprelində keçirilən əks-həmlə əməliyyatı nəticəsində Talış kəndi ətrafındakı azad edilmiş yüksəkliklərdə yerləşən Azərbaycan Ordusunun mövqelərindən yaşayış məntəqəsi və bu istiqamətdə düşmən müdafiəsinin dərinliyindəki digər strateji əhəmiyyətli kommunikasiya xətləri daim nəzarətdə saxlanılır. Aprel döyüşlərindən sonra ermənilər tikinti işlərini Talış kəndi adı altında cəbhə xəttindən xeyli uzaqlıqdakı digər ərazidə aparırlar.

Nazirlikdən təqdim edilən fotolarda Azərbaycan Ordusunun yüksəklikdəki mövqelərindən aydın görünən Talış kəndidir və burada hər hansı bir tikintinin aparılması müşahidə olunmur. Döyüş mövqelərinə bu qədər yaxın məsafədə olan ərazidə tikinti işlərinin aparılması mümkün deyil.

*Vətənpərvərlik*

# Məktəbli gənclərimizin düşüncələri qürurvericidir

*Sağlam gənclik xalqın parlaq gələcəyinin təminatıdır. Azərbaycanda gənclərə olan diqqət və qayğı ölkə rəhbərliyinin siyasətində mühüm yer tutur. Dövlətçiliyin, müstəqilliyin möhkəmlənməsi və ərazi bütövlüyümüzün qorunması cəmiyyətin bu aparıcı qüvvəsindən də çox asılıdır.Bu günlərdə Nəsimi rayonunda yerləşən Azərbaycanın Milli Qəhrəmanı Abdulla Rəhimovun adını daşıyan 247 saylı tam orta məktəbdə olduq. Məktəbin girişində şəhidin büstü qoyulub, şəxsi əşyalarından ibarət xüsusi guşə yaradılıb.*






Məktəbin direktoru Nihal Hacıyeva bildirdi ki, gənclik bir millətin var olması, inkişafı üçün təməl daşıdır. "Gənclərimizin bilik və bacarıqlarını, cəmiyyətdə layiqli yer tutmalarını təmin edən şəraitin yaradılması dövlət gənclər siyasətinin əsasını təşkil edir. Ümummilli liderimiz Heydər Əliyev daim gənclərə qayğıyla yanaşaraq onların milli və vətənpərvər ruhda tərbiyəsinə xüsusi önəm verirdi. Ulu Öndərimizin gənclərlə görüşlərinin birində dediyi, "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir" fikri hər bir pedaqoqun peşə amalına çevrilib. Bu gün də dövlət gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək mahiyyət və keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Dövlət başçısı hər zaman gəncləri maraqlandıran, onları narahat edən problemlərlə maraqlanır, tövsiyə və tapşırıqlarını verir. Bu etimadın nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar."

Nihal müəllim ölkə rəhbərinin təhsilə diqqət və qayğısından da danışaraq bildirdi ki, sağlam düşüncəli yeni nəslin formalaşdırılmasında misilsiz işlər görülməkdədir. "Gənclərin hərtərəfli inkişafı üçün dövlətimiz hər cür şərait yaradıb. Məktəbimiz ölkə başçısının göstərişinə əsasən tam təmir olunaraq şagirdlərin istifadəsinə verilib, maddi-texniki təminatımız daha da gücləndi. Müəllimlərimiz müxtəlif treninq və sınaq kurslarından keçərək dərsləri yeni üsul və metodlarla tədris edirlər. Məktəbimiz Təhsil Nazirliyinin təhsildə inkişaf və innovasiyalar üzrə 1-ci qrant müsabiqəsinin qalibidir".

Respublikamızda əksər təhsil müəssisələrinə şəhid adının verilməsini gənclərimizin vətənpərvərlik tərbiyəsində böyuk önəm daşıdığını bildirən direktor, Milli Qəhrəmanın ailəsi ilə məktəbin sıx münasibətdə olduğunu vurğuladı. "Onun doğum və anım günlərini ailə üzvlərinin və silahdaşlarının iştirakı ilə qeyd edirik. Bu il Milli Qəhrəmanın 60 illik yubileyini də təntənəli keçirəcəyik. Bütün bunlar şagirdlərimizin vətənpərvər ruhda böyüməsinə müsbət təsir göstərir. Şagirdlərimiz ön xətdə qulluq edən əsgərlərimizə davamlı olaraq məktublar yazırlar".

Milli Qəhrəmanın büstü önünə toplaşan ibtidai sinif şagirdləri diqqətimi cəlb etdi. Sinif rəhbəri Naridə Həsənalıyeva gələcəyimiz olan bu balacaların Vətənə məhəbbət, xalqa hörmət, dövlətə sədaqət ruhunda tərbiyə olunduğunu qeyd etdi. "Şagirdlərimiz vətənpərvər ruhda böyüyür, təhsil alır və sabahın layiqli vətəndaşları kimi böyüyürlər. Biz də bu sahədə əlimizdən gələni edirik."

Sinfə daxil oluruq. Uşaqlar öncə əllərini ürəklərinin üzərinə qoyaraq himnimizi oxuyurlar. Nazlı Qurbanzadə belə bir ölkədə dünyaya göz açdığı üçün Uca Yaradana, Nuray Səfərli Vətənimizdəki əmin-amanlığa, sabitliyə görə dövlət başçımıza, Tuncay Əsgərli və Aydan Məmmədzadə müstəqilliyimiz və azad yaşamağımız üçün canlarından keçən şəhidlərimizə təşəkkür etdiklərini bildirərkən Arifə Yolçuyeva məhz igidlərimizin hünəri sayəsində bu gün xoşbəxt, firavan yaşadıqlarını dilə gətirdi. Aylin Alızadə və Nəzrin Alcanova dövlətimizin memarı, Ümummilli Liderimizə sonsuz təşəkkür etdilər. Özünü sabahın əsgəri adlandıran Tuncay Qənbərli Vətənimizi qoruyan ordumuzla, hər bir əsgərimizlə qürurlanır.

Dəhlizdə ümummilli liderimiz Heydər Əliyevin müdrik kəlamları, Dövlət atributları, Milli Qəhrəman haqqında xüsusi guşə şagirdlərin uğurlarını və əl işlərini əks etdirən bir-birindən maraqlı stendlər də diqqətimizdən yayınmır.

Bir zamanlar Abdulla Rəhimovun sinif rəhbəri olan fizika müəllimi Zemfira Fərmanovaya görə, məktəblərdə həyata keçirilən tərbiyə işi hər bir müəllimdən pedaqoji ustalıq tələb edir. "Uşaqların həyata fərqli baxışları, nitqi məktəbdə təşkil olunan tərbiyə əsasında formalaşır. Bu il Təhsil Nazirliyinin ilk dərs saatı "Cocuq Mərcanlı - tarixi qayıdışın başlanğıcı" mövzusuna həsr olundu. Şagirdlərimizə aprel döyüşlərində ordumuzun qazandığı qələbə, bir qarış Vətən torpağını da canından əziz bilən oğullarımızın qəhrəmanlığı, Cocuq Mərcanlıdakı quruculuq işləri haqqında məlumat verdik. Şagirdlərimizin vətənpərvərlik, Vətənə, torpağa bağlılığı mənə sevimli şagirdim Abdulla Rəhimovu xatırladır...".



Məktəbli gənclərin çağırışaqədərki hazırlığı fənnini ehtiyatda olan hərbçi Zülfüqar Mehdiyev tədris edir. Bu dəyərli ənənənin hər yerdə davam etdirilməsi çox sevindiricidir. Ordu həyatını yaşamış Zülfüqar müəllim bildirdi ki, xalqını, millətini sevib özünü Vətəninin bir parçası bilən hər müəllimin ən ümdə vəzifəsi cəmiyyətimizə, xalqımıza dəyərli vətəndaşlar hazırlamaqdır. "Tədris etdiyim fənn gənclərimizi orduya, Vətənə xidmətə hazırlamaqdan ibarətdir. Gəncləri psixoloji baxımdan hərbi həyata hazırlamaq vacib məsələdir. Qafqazın ən güclü ordusuna sahib olmamızla qürur duyuruq. Ali Baş Komandanımızın rəhbərliyi ilə orduda aparılan islahatlar, əsgərlərimizə göstərilən qayğı şagirdlərimizi hərbi xidmətə hazırlayır, vətənpərvərlik hisslərini daha da gücləndirir".

Müəllimin söhbətinə görə, ötən dövrlərlə müqayisədə ordu quruculuğunda qazanılan uğurlar, cəbhə xəttində düşmənə qətiyyətli cavab verilməsi gənc nəsildə hərbi həyata güclü maraq yaradıb.

Gənclərin çağırışaqədərki hazırlıq sinfi zəruri olan bütün vəsaitlərlə təmin olunub. Dərsin gedişini izləyib şagirdlərin bu vacib fənnə sevgilərinin şahidi oluram.

Fasilədə gənclərlə söhbət edirəm. Şahin Quliyev Vətənimizin var olması üçün canından keçərək müqəddəs zirvəyə ucalan Milli Qəhrəmanın adını daşıyan məktəbdə təhsil aldığı üçün fəxr duyduğunu bildirdi. "Belə oğulların sayəsində biz də firavan yaşayıb təhsil alırıq. Abdulla Rəhimovun timsalında bütün şəhidlərin qarşısında ehtiramla baş əyirəm...".

Qurban İbrahimova görə, hər bir gəncin həyatında əsas vəzifəsi öncə Vətən qarşısında müqəddəs borcunu ödəmək üçün əsgəri xidmətdə olmasıdır. Nihat Namazov da "Vətəninə, xalqına bağlı olan hər kəs əzəli torpaqlarımızın düşmən tapdağında qalmasına görə narahat olmalıdır", - deyir.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə "Ölkəmizi tanıyaq" adlı maarifləndirici aksiya keçirilir. Bu aksiyanın iştirakçıları olan Murad Hüseynli və Fərid Baxşəliyev deyir ki, insan öz ölkəsi, Vətəni haqqında daha çox məlumatlı olarsa, torpağını da qorumağı özünə müqəddəs borc bilər.

"Biz gənclər çiyinlərimizdəki böyük məsuliyyətin fərqindəyik. Vətənimizin, dövlətimizin bizdən gözləntiləri böyükdür. Bu etimadı mütləq doğruldacağıq", - İsmayıl İsmayılov belə deyir. Uşaq yaşlarından zabit atasının hərbi formasını geyinib, güzgü qarşısında özünə baxmaqdan doymayan İbrahim Hüseynov isə qürur və fəxrlə "Gələcəkdə hərbçi olacağam" deyir.

Arzu Abbaslı, Aidə Əbiyeva, Miremin Nabiyev, Ülkər Əsgərzadə, Günel Qasımova və başqaları isə Vətənimizin adını göylərə qaldıran qəhrəmanları özlərinə örnək hesab edirlər.

Məktəbli gənclərimizdən könül xoşluğuyla ayrılıram. Onların gələcək haqqında düşüncələri, Vətənimizə, millətimizə layiqli övlad olmaq istəkləri nə qədər xoşdur!..

**Leytenant Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Qədim Azərbaycanda dövlətçilik ənənələri.**
**2. Orta əsrlər Azərbaycan dövlətləri haqqında.**
**3. XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi.**
**4. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir.**

**Mövzu:** *Azərbaycan dövlətçiliyinin yaranma tarixi və inkişaf mərhələləri.*

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və digər müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

*Qədim Azərbaycanda dövlətçilik ənənələri*

Azərbaycan ərazisində məlum olan ilk dövlət qurumu Arattadır. Aratta ölkəsi Cənubi Azərbaycanda e.ə. III minilliyin birinci yarısında meydana gəlmiş ilk dövlət qurumu idi. Onun ərazisi Urmiya gölünün cənub və cənub-şərq sahilini əhatə edirdi.

E.ə. I minilliyin əvvəlində Cənubi Azərbaycan ərazisində Urmiya gölü hövzəsində mərkəzləşmiş dövlətin yaranması üçün şərait yaranır və yeni dövlət Manna adlanır və bu dövlət e.ə. VI əsrdə süquta uğrayır.

Bundan sonra Araz çayından şimalda və cənubda yerləşən Azərbaycan torpaqları müstəqil hakimiyyət idarəsini saxlamaqla İran Əhəmənilər sülaləsindən asılı olur.

Makedoniyalı İsgəndərin dövründə Urmiya gölü hövzəsində müstəqil padşahlıq Adərbayqan (Atropatena) dövləti idi. Tarixi mənbələrdə Adərbayqan ilə əlaqədar hadisələr e.ə. III əsrin sonuna aid qaynaqlarda göstərilir.

Azərbaycanın Araz çayından şimalda yerləşən torpaqları Albaniya adlandırıldı. Albaniya şimalda Dağıstan, qərbdə Şərqi Gürcüstan, cənub və cənub-qərbdə Adərbayqan ilə həmsərhəd idi. Albaniyanın paytaxtı əvvəl Qəbələ, sonra isə Bərdə olub və VII əsrin sonlarına, Azərbaycan ərəblər tərəfindən işğal edilənə qədər öz müstəqilliyini qoruyub saxlaya bilib.

*Orta əsrlər Azərbaycan dövlətləri haqqında*

**Şirvanşahlar dövləti**

Bu dövlətin yaradıcısı Heysəm ibn Xalid idi. O, Şirvanın birinci rəsmi məliki Yəzid ibn Məzyədin nəvələrindən olduğu üçün sülalə Məzyədilər adlanırdı. Məzyədilər hakimiyyətinin ilk dövründə Şirvanşahların sərhədləri cənubda Kür çayı, şimalda Dərbənd və Samur çayı, qərbdə Göyçay və Şəki, şərqdə Xəzər dənizi ilə əhatə edilirdi. Müxtəlif dövrlərdə Şəki, Beyləqan və Bərdə Şirvanşahlar dövlətinin tabeçiliyinə keçmişdi. Dövlətin paytaxtı Şamaxı şəhəri idi.

Köçəri tayfaların hücumları, qonşu feodal dövlətləri ilə ara müharibələri, sülalə üzvləri arasında hakimiyyət üstündə mübarizənin güclənməsi, əhali arasında feodal zülmünə qarşı iğtişaşların artması nəticəsində XI əsrin 70-80-cı illərində Məzyədilər sülaləsi süquta uğradı.

**Sacilər dövləti**

IX əsrdə xilafətə qarşı mübarizə şəraitində Azərbaycanda meydana gələn feodal dövlətlərindən biri də paytaxtı Ərdəbil şəhəri olan Sacilər dövləti (889-942) idi. Yeni sülalənin banisi xilafət ordularında döyüşlərdə dəfələrlə sınaqdan çıxmış adlısanlı türk sərkərdəsi Əbu Sac Divdad idi. Sacilər sülaləsinin hakimləri içərisində ən nüfuzlusu olan Yusifin dövründə Sacilər dövləti istiqlaliyyət qazandı. Azərbaycan torpaqları mərkəzləşdirildi. Yusifin ölümündən sonra hakimiyyət əldən-ələ keçdi. 942-ci ildə Sacilər sülaləsini Salarilər əvəz etdilər.

**Salarilər dövləti**

Dövlətin yaradıcısı Mərzuban ibn Məhəmməd Gilan vilayətindəki Salarilər tayfasına mənsub olduğundan dövlət Salarilər adlanırdı. Salarilər dövlətinin (942-981) də paytaxtı Ərdəbil şəhəri idi.

**Şəddadilər dövləti**

X əsrin II yarısında Azərbaycanda meydana gələn müstəqil feodal dövlətlərdən biri də paytaxtı Gəncə olan Şəddadilər dövləti idi. Onun ərazisi əsasən Kür və Araz çayları arasındakı torpaqları əhatə edirdi. Şəddadilər dövləti şimal tərəfdən Şəki və Kaxetiya çarlığı, cənubdan Rəvvadilər dövləti ilə həmsərhəd idi.

**Rəvvadilər dövləti**

981-ci ildə Əhər (Qaradağ) hakimi Əbülheyca Rəvvadi Salarilər dövlətinin hakimi İbrahimə tabe olmaqdan boyun qaçırdı, onunla mübarizə apararaq qalib gəldi və hakimiyyəti ələ aldı. Beləliklə, Rəvvadilər dövləti rəsmən yarandı. Salarilər dövlətinin əlində olan Azərbaycan torpaqları Rəvvadilərin hakimiyyəti altına keçdi. Dövlətin paytaxtı Ərdəbildən Azərbaycanın qədim şəhəri Təbrizə köçürüldü.

**Səlcuqlar dövləti**

Səlcuq sultanı Alp Arslan (1063-1072) Azərbaycana gələrək 1065-ci ildə Təbrizə səlcuq əmiri təyin etdi. Bununla da Rəvvadilər dövləti öz müstəqilliyini itirərək, səlcuqların hakimiyyəti altına keçdi.

XI əsrin ortalarında Azərbaycanda fəaliyyət göstərən Şirvanşahlar, Şəddadilər və Rəvvadilər arasında sabit siyasi və iqtisadi əlaqələr zəif idi. Əksinə, onlar bir-biri ilə çəkişirdilər. Belə bir şəraitdə Orta və Yaxın Şərqdə Səlcuqilər imperiyası yarandı. Orta Asiya, İran, İraq, Suriya, Misir, Kiçik Asiya, Ön Qafqaz xalqları ilə birlikdə Azərbaycan da Səlcuqilərin hakimiyyəti altına keçdi. Səlcuqilər dövlətinin banisi oğuz tayfasına mənsub Səlcuq adlı cəsur və cəngavər şəxs idi. Səlcuq bir əsrdən artıq yaşayıb və islam dinini qəbul etdikdən sonra bu dinin bütün türklər arasında yayılması uğrunda mübarizə aparıb. 119 il fəaliyyət göstərən bu dövlət türkdilli xalqların hərbi-siyasi, sosial-iqtisadi və mənəvi inkişafına güclü təsir göstərmişdir.

**Eldəgizlər dövləti**

XII əsrin 20-30-cu illərində Səlcuq sultanları arasında hakimiyyət uğrunda mübarizə nəticəsində mərkəzi hakimiyyət zəiflədi. XII əsrin 30-cu illərində Azərbaycan Atabəylər dövləti yarandı. Bu dövlətin yaradıcısı zəmanəsinin ağıllı diplomatı və uzaqgörən dövlət xadimi Şəmsəddin Eldəgiz Eldəgizlər sülaləsinin (1136-1225) banisi idi.

XIII əsrin əvvəllərində Mərkəzi Asiyada güclü hərbi qüdrətə malik Monqol dövlətinin Azərbaycana işğalçı yürüşləri ərəfəsində Azərbaycan ərazisində Atabəylər, Şirvanşahlar, Marağada isə Rəvvadilər nəslindən olan Ağsunqurilər sülaləsi (1108-1227) hakimiyyət sürürdü. XII əsrin sonunda Eldəgizlər sülaləsi daxilində gedən mübarizə dövlətin əsaslarını sarsıdırdı.

**Hülakülər dövləti**

1256-cı ildə monqol şahzadəsi Hülakü xan Azərbaycanı, 1258-ci ildə isə Bağdadı işğal edərək yeni zəbt edilmiş ərazilər hesabına mərkəzi Azərbaycan olmaqla Hülakülər dövləti yaratdı. Monqolların hakimiyyəti dövründə Şirvanşahlar dövləti Hülakü dövlətinə tabe idi.

**Qaraqoyunlular dövləti**

Yaxın və Orta Şərqin hərbi-siyasi tarixində qaraqoyunlu və ağqoyunlu tayfaları Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamışlar. Bu tayfalar əsasən qoyunçuluqla məşğul olurdu. Qaraqoyunlu tayfa ittifaqının bayrağında qara qoçun, Ağqoyunlu tayfa ittifaqının bayrağında isə ağ qoçun təsviri vardı. Buna görə də həmin tayfaların biri Qarayqoyunlular, digəri isə Ağqoyunlular adlanırdı.

XIV əsrin ikinci yarısında Azərbaycanın qərbində yaranan Qaraqoyunlu dövləti öz daxili quruluşuna görə möhkəm deyildi.

**Ağqoyunlular dövləti**

Uzun Həsənin hakimiyyəti dövründə (1453-1478) möhkəmlənmiş və müstəqil siyasət yeritmişdir. Ağqoyunlu dövləti özünün ən qüdrətli çağlarında Kürdən cənubda olan Azərbaycan vilayətləri, Ərməniyyə, Diyarbəkir, Şərqi Gürcüstan, Ərəb İraqı, Mazandaran və Xorasan istisna olmaqla İranın qalan vilayətlərini əhatə edirdi.

**Səfəvilər dövləti**

Azərbaycan dövlətçiliyi tarixində Səfəvilər dövlətinin özünəməxsus yeri vardır. Səfəvilər dövlətinin banisi Şah İsmayıl (1501-1524) və bu dövlətin paytaxtı Təbriz şəhəri idi. XVII əsrdə Şərqi Gürcüstan istisna olmaqla Azərbaycan inzibati idarə sistemi Səfəvi imperiyasının bütün şimal-qərb hissəsini əhatə edirdi: əhalinin dörddə üç hissəsi azərbaycanlılardan ibarət olan Çuxur-Səd bəylərbəyliyi də (indiki Ermənistan ərazisi) Azərbaycana daxil idi. Azərbaycanda dörd bəylərbəylilik var idi: Təbriz, Çuxur-Səd, Qarabağ və Şirvan.

*XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi*

XVIII əsrin ikinci yarısında mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən feodallar arasında gedən müharibələr nəticəsində Azərbaycan ərazisində feodal dövlətləri - xanlıqlar meydana gəldi.

Şəki xanlığı 1744-cü ildə Hacı Çələbi Qurban oğlu tərəfindən yaradıldı.

Qarabağ xanlığının əsasını 1748-ci ildə Pənahəli xan qoyub.

Quba xanlığı isə 1772-ci ildə yaranmışdı ki, onu da Hüseynəli xan (1722-1758), sonra isə oğlu Fətəli xan (1758-1789) idarə etmişlər.

Zəngəzur sıra dağlarından Araz vadisinə qədər olan ərazidə Naxçıvan xanlığı, Murovdağ silsiləsindən Kür çayınadək Gəncə xanlığı, Şirvan düzənliyində isə Şamaxı xanlığı yaranmışdı. Abşeron yarımadasında Bakı xanlığı, Kür ilə Araz qovşağında Cavad xanlığı, Xəzərin cənub-qərb sahilində Talış xanlığı, Azərbaycanın cənubunda Təbriz, Xoy, Qaradağ, Sərab, Marağa, Maku xanlıqları mövcud olub.

XVIII yüzilliyin sonu-XIX yüzilliyin əvvəllərində Azərbaycanın daxili və xarici siyasi vəziyyəti çox mürəkkəb idi. Əvvəl Şəki, sonra isə Quba xanlıqlarının Azərbaycan torpaqlarını öz ətrafında birləşdirmək, vahid Azərbaycan dövləti yaratmaq cəhdləri baş tutmadı. Buna bir tərəfdən ölkənin sosial-iqtisadi durğunluğu, digər tərəfdən isə xarici istilalar, İran və Rusiyanın bu yerlərə qəsbkar yürüşləri mane olurdu. Belə bir şəraitdə Azərbaycana göz dikmiş dövlətlərin hərbi planlarına qarşı dura biləcək qüvvə yox idi.

Çar Rusiyası yeni torpaqlar zəbt etməyə, tutduğu yerləri Rusiya sənayesi üçün xammal mənbələrinə, satış bazarlarına çevirməyə can atırdı.

1804-1813-cü illərdə I Rusiya-İran və 1826-1828-ci illərdə II Rusiya-İran müharibəsi nəticəsində Azərbaycan rus qoşunları tərəfindən işğal edildi. 10 fevral 1828-ci il Türkmənçay müqaviləsinə əsasən Azərbaycanın Araz çayından şimal hissəsi Rusiya imperiyasının ərazisinə qatıldı.

*Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir*

1918-ci il mayın 28-də öz müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı və bolşeviklərin Azərbaycana hücumu nəticəsində 1920-ci ilin aprelində süqut etdi. Lakin Azərbaycan xalqının öz dövlətini qurmaq, müstəqillik uğrunda mübarizə əzmini qırmaq mümkün olmadı. 1991-ci ildə xalqımız öz sarsılmaz iradəsi ilə müstəqilliyini yenidən bərpa etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Soveti "Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında" Konstitusiya Aktını qəbul etdi və ölkəmiz yenidən müstəqil oldu.

Ən çətin, məsuliyyətli məqamlarda inadkarlıq mücəssəməsinə çevrilərək Azərbaycanın ruhuna bir nəfəs kimi qayıdan, onu canı-qanı qədər sevərək hifz edən, milli mövcudluğu yaşatmaq kimi ağır yükün altına çiyinlərini heç nədən çəkinmədən mərdliklə verən ümummilli lider Heydər Əliyev nüfuzlu dövlət xadimi, görkəmli ictimai-siyasi xadim və ən başlıcası, Böyük Azərbaycanlı olduğunu təsdiqləmişdi. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən Ümummilli Lider Azərbaycana, azərbaycanlılara xas gözəl nə varsa, onların hamısını öz nurlu simasında bir araya gətirmişdi. Daha böyük ölkələrə rəhbərlik etmək imkanında olan Ümummilli Lider Azərbaycan adlı qədim yurdu az qala qarış-qarış gəzərək rəhbər kimi onun hər bölgəsinə silinməz izlər salmış, sağlığında xalq üçün gördüyü nəhəng işlərlə özü-özünü əbədiləşdirmişdir. Ulu Öndərimizin siyasi dühasının məhsulu və yaratdığı şah əsəri müstəqil Azərbaycan Respublikasının hərtərəfli inkişafı barədə strateji konsepsiyaya sadiqlik nümayiş etdirən, doğma xalqına xidməti həyat amalı kimi qəbul edən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin məqsədyönlü dövlətçilik siyasəti nəticəsində ölkə həyatının bütün sahələrində nəzərə çarpan nailiyyətlər əldə edilmiş, əhalinin həyat səviyyəsinin durmadan yüksəlməsinə təminat yaradan dayanıqlı iqtisadi tərəqqiyə nail olunmuş, demokratik dəyərlərin daha da geniş vüsət alması ilə sivil dövlət və vətəndaş cəmiyyəti formalaşdırılması istiqamətində irəliyə doğru inamlı addımlar atılmışdır.

Hər bir Azərbaycan vətəndaşı Azərbaycan dövlətçiliyinin tarixini bilməli və onunla fəxr etməlidir. Bu gün hər birimiz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlətçilik amallarını, yüksək ideyalarını yaşatmaq və gələcək nəslə çatdırmaq, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə onun ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməliyik.

**Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

*Azərbaycan Ordusu - 100*

# Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

(III məqalə)

Hərbi Nazirliyin rəhbərliyi 1918-ci ilin dekabrında bildirirdi ki, mövcud olan fərariliyin əsas səbəblərindən biri çağırış orqanlarının fəaliyyətinin düzgün qurulmaması ilə bağlıdır. Qeyd edilirdi ki, xidmətə yalnız rüşvət verib canlarını qurtara bilməyən şəxslər çağırılırdılar və bunun nəticəsi idi ki, qoşun hissələrində bir nəfər də olsa imkanlı adamın övladı yox idi. Yalnız Praporşiklər məktəbində imkanlı adamların övladlarına rast gəlmək olardı ki, onlar da öz arzuları ilə təhsil almağa gəlmişdilər. Hərbi mükəlləfiyyətin əsas ağırlığı isə kasıbların üzərinə düşürdü.

1918-ci il dekabrın 25-də S.Mehmandarov hərbi xidmətə çağırışın yaxşılaşdırılması münasibətilə xalqa müraciət etdi. Həmin müraciət həm rus dilində, həm də Azərbaycan dilində çap edilərək əhali arasında yayıldı. Həmin müraciətdə S.Mehmandarov türk qoşunlarının Azərbaycanda olduğu vaxt çağırış işində yol verilən nöqsanlara, hissələrdə əsgərlərə qarşı fiziki güc tətbiq edilməsinə, ağır məişət şəraitinə toxunmaqla bərabər, onların aradan qaldırılması üçün qətiyyətli tədbirlərin həyata keçirilməsinə başlanmasını vurğulayırdı:

"İndi isə qoşun düzəltməyi öz öhdəmə götürmüşəm və cəmi vətəndaşları - istər fağır, istərsə də dövlətlini əsgərliyə çağırıram. Hər kəs ki, bir dövlətli uşağını qələmdən salıb azad etsə də, böyük cəzaya düçar olacaqdır və burası da məlum olsun ki, əsgərlər yaxşı geyəcəklər və yeməklərinin də yaxşı olmağına mən çox çalışıram. Otaqları isti olacaq və hər bir əsgər üçün ayrı yorğan-döşək hazırlatmışam".

Həyata keçirilən bütün bu tədbirlər Azərbaycan Ordusunun yeni-yeni hissələrinin təşkilinə imkan verirdi. 1919-cu ilin əvvəllərində bu sahədə xeyli fəallıq duyulurdu. 1919-cu ilin yanvarında Gəncədə olan təlim taboru ləğv edildi və o, Gəncə alayının 2-ci taboruna çevrildi. Elə həmin ilin yanvarında bir zirehli qatarın şəxsi heyəti kompeltləşdirilmişdi. Nazirlər Şurasının 22 yanvar 1919-cu il tarixli qərarı ilə Azərbaycan Korpusunun qərargahı ləğv edilərək onun zabitləri Hərbi Nazirliyin aparatına cəlb edildi, bir çoxu isə qoşunlarda xidmətin təşkilinə göndərildi.

Qoşunların sayının artması ilə Ümumi Qərargahın tərkibində olan Ləvazimat şöbəsi də 1919-cu ilin əvvəllərində Ləvazimat İdarəsinə çevrilərək birbaşa hərbi nazirin tabeçiliyinə keçmişdi.

1919-cu il yanvarın 10-da Hərbi Nazirlikdə Müvəqqəti Hərbi Şura yaradıldı. Hərbi Şuranın Əsasnaməsi və daimi tərkibi təsdiq edilənə kimi Müvəqqəti Hərbi Şura hərbi qanunvericilik və hərbi idarəetmə sahəsində mühüm məsələlərin müzakirə edilməsi və müvafiq qərar qəbul edilməsi ilə məşğul olmalı idi. Onun tərkibinə piyada və süvari diviziyalarının rəisləri, Ümumi qərargahın rəisi, Topçu, Ləvazimat və İstehkam İdarələrinin rəisləri, general-kvartirmeyster, növbətçi general və tapşırıq generalı daxil idi. Hərbi Şuranın iclasları hərbi nazirin, ya da onun müavininin sədrliyi altında keçməli idi. Nazirliyin digər idarə və xidmət rəisləri onların xidmətlərinə aid olan məsələlərin müzakirəsi zamanı müvəqqəti Hərbi Şuranın iclaslarına dəvət edilə bilərdi.

Ordu quruculuğu daim inkişafda olan bir proses kimi götürülürdü. Bu inkişafa uyğun olaraq ordunun strukturunda, idarəetmə orqanlarında müvafiq dəyişikliklər aparılır, ordunun möhkəmlənməsinə, döyüş hazırlığı səviyyəsinə, qoşun hissələrinin praktiki fəaliyyətinin yaxşılaşmasına təsir göstərə biləcək bütün amillər mütəmadi olaraq nəzərdən keçirilir və onların ən səmərəli cəhətlərinə üstünlük verilirdi.



Bunun nəticəsi kimi, 1919-cu ilin martında Azərbaycan Ordusunun idarəetmə orqanlarında mühüm bir keyfiyyət dəyişikliyi meydana gəldi. Hərbi nazirin əmri ilə martın 26-da Baş Ərkanı-hərb (Generalnıy ştab) təsis edildi və general-leytenant Məmməd bəy Sulkeviç bu orqanın rəisi təyin edildi. S. Mehmandarov bu strukturun yaradılmasını onunla əlaqələndirirdi ki, Ümumi qərargah (Qlavnıy ştab) qoşunların həm təlim-tərbiyəsi, ordunun müharibəyə hazırlaşdırılması, həm də ordunun təsərrüfat məsələləri və gündəlik qayğıları ilə eyni vaxtda səmərəli məşğul ola bilmir. Ordu böyüdükcə onun təsərrüfat məsələləri, təchizat və təminat qayğıları da artırdı. Ona görə də ordunun təlim-tərbiyəsi, döyüş hazırlığı, müharibəyə hazırlaşdırılması və s. kimi vəzifələr yeni yaradılan Baş ərkani-hərbin səlahiyyətinə, təsərrüfat və təminat məsələləri isə Ümumi qərargahın səlahiyyətinə verildi. General-leytenant M.Sulkeviç Ərkani-hərbin rəisi təyin edildikdən sonra ordu hissələrinin formalaşması daha ahəngdar xarakter aldı, yəni, 2-ci Bakı piyada alayının formalaşdırılması sürətləndirildi, 3-cü Şəki süvari alayının təşkili tezliklə başa çatdırıldı.

Azərbaycan hökumətinin Azərbaycan xalqının idarəsini əks etdirdiyinə əmin olan müttəfiq dövlətlərin hərbi komandanlığı 1919-cu il aprelin əvvəllərində milli qoşun hissələrinin az saylı kontingentinin Bakıda da yerləşdirilməsinə icazə verdi. Martın 31-də hərbi nazirin əmri ilə Bakı şəhərində yerləşəcək hissə və bölmələr dəqiqləşdirildi. Həmin qüvvələrə bir piyada taboru, 400 nəfərlik süvari və bir topçu batareyası daxil idi. Bütün bu qüvvələrə 1-ci Tatar süvari alayının komandiri polkovnik Ağalarov rəhbərlik edirdi. Polkovnik Ağalarova Bakı qornizonunun rəisi vəzifəsi də həvalə olunmuşdu. Aprelin 5-də həmin qüvvələr Bakıya daxil oldu və Salyan kazarmalarında yerləşdirildi. Bakıya Azərbaycan qoşun hissələrinin daxil olması münasibətilə Hərbi nazir S.Mehmandarov da Bakıya gəldi. Şəhər əhalisi Azərbaycan Ordusunun qoşun hissələrini çox böyük təntənə ilə qarşıladı. 1919-cu ilin yayında və payızında Azərbaycan Ordusu hissələrinin formalaşdırılması böyük sürətlə davam etdirildi. Bu dövr qoşun hissələrinin yaradılmasında ən məhsuldar dövr sayıla bilər. İngilis qoşunlarının Azərbaycan ərazisini tərk etməsinə başlaması ilə 1919-cu ilin iyunun son günləri və iyulun əvvəllərində Hərbi Nazirliyin rəhbər orqanları yenidən Bakıya köçürüldü. Hərbi Nazirliyin aparatı, Ümumi qərargah və Baş Ərkani-hərb Bakıda Krasnovodsk və Merkuri küçələrinin (indiki S.Vurğun küçəsi ilə və Azərbaycan prospektinin) kəsişməsindəki binada yerləşdirildi.

1919-cu ilin payızında təşkil edilən ən əhəmiyyətli hərbi strukturlardan biri Bakı istehkamat hissəsi (Bakinskiy ukrepleniy rayon) idi. Bu strukturun yaradılmasında başlıca məqsəd şimaldan, xüsusən dənizdən ehtimal olunan Denikin təhlükəsinin qarşısını almaq və bütünlüklə Bakının etibarlı müdafiəsini təşkil etmək idi. Bu məsələ ilə bağlı hərbi nazir S.Mehmandarovun yazdığı raport 1919-cu il sentyabrın 13-də Dövlət Müdafiə Komitəsinin iclasında müzakirə edildi və nazirin qaldırdığı vəsatətin məqsədəuyğunluğu barədə qərar qəbul olundu. Qərarda Bakı İstehkamat hissəsinin rəisi vəzifəsini təsis etmək, bu vəzifəni şəhərin hərbi general-qubernatoru vəzifəsi ilə birləşdirmək, Bakı şəhər rəisliyi ərazisini ona tabe etmək öz əksini tapmışdı.

Ümumiyyətlə, ordu quruculuğu istiqamətində aktuallıq kəsb edən məsələlərə çevik və operativ şəkildə yanaşılması baxımından Dövlət Müdafiə Komitəsinin yaradılması hökumət tərəfindən qəbul edilmiş əhəmiyyətli qərarlardan biri idi. Nazirlər Şurasının sədri tərəfindən sədrlik edilən bu orqan reqlament gözləmədən, zərurət yarandıqca vaxtaşırı çağırılır və lazımi qərarlar qəbul edilirdi. Ölkənin müdafiəsinin təşkili ilə bağlı ali dövlət orqanı olan Dövlət Müdafiə Komitəsi fəaliyyətində iki cəhəti üzvi şəkildə birləşdirirdi. Bu orqan hərbi quruculuq sahəsində həm zəruri olan qərarları qəbul edir, həm də özü bu qərarların icrasını təşkil edirdi.

Ölkədə hərbi quruculuğun praktiki məsələlərinin reallaşdırılmasında Nazirlər Şurasının özünün də xüsusi yeri var idi. Respublikanın müdafiəsinin gücləndirilməsi üçün Nazirlər Şurası həm ölkənin daxili imkanlarını səfərbərliyə alır, həm də fəal xarici siyasət yeridirdi. Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, müdafiə qabiliyyətini gücləndirmək, onun ərazi bütövlüyünün toxunulmazlığına nail olmaq həyata keçirilən xarici siyasətin aparıcı xəttini təşkil edirdi. Bu baxımdan həm müttəfiq dövlətlər, həm nüfuzlu dünya dövlətləri ilə, həm də yaxın qonşularla qarşılıqlı əlaqələrin qurulmasına cəhd göstərildi. Başlıcası isə, Azərbaycanla Gürcüstan arasında hərbi əməkdaşlıq gücləndirildi və bu əməkdaşlığı nizamlayan hüquqi baza kimi iki respublika arasında 1919-cu il iyunun 16-da hərbi saziş imzalandı. Sazişi Azərbaycan hökuməti tərəfindən xarici işlər naziri M.Cəfərov, hərbi nazir S.Mehmandarov və Ərkani-hərbin rəisi M.Sulkeviç imzalamışdır. Tiflisdə üç il müddətinə imzalanmış həmin sazişin əsas mahiyyəti bundan ibarət idi ki, respublikaların hər hansı biri xarici müdaxiləyə məruz qalacağı tədbirdə digər respublika ona mümkün köməyi göstərməlidir. Müqaviləyə əsasən, 2 həftə ərzində Ermənistana da bu sazişə qoşulmaq hüququ verilirdi. Ancaq Azərbaycan torpaqlarına göz dikən Ermənistan bu müqaviləyə qoşulmadı.

**Ehtiyatda olan polkovnik**
**Mehman SÜLEYMANOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və Elm şöbəsinin hərb tarixi üzrə dosenti, tarix elmləri doktoru**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyə Prezidenti Suriya ilə sərhəddəki ordu qərargahına baş çəkib



Prezident Rəcəb Tayyib Ərdoğan yanvarın 25-də axşam saatlarında Türkiyə Silahlı Qüvvələri (TSQ) tərəfindən həyata keçirilən "Zeytun budağı" antiterror əməliyyatını idarə edən Hatay şəhərindəki ordu qərargahında olub.

Türkiyə Prezidentini TSQ Baş Qərargahını rəisi, ordu generalı Hülusi Akar, hökumət üzvləri, yerli hakimiyyətin rəhbər şəxsləri və digər rəsmi şəxslər qarşılayıblar.

Qərargahda dövlət başçısına PKK-KCK-PYD-YPG və İŞİD terrorçu qruplaşmalarının yerləşdiyi nöqtələr, Türkiyə ordusunun mövqeləri və gediş planları barədə məlumat verilib.

### Yapon dənizində Rusiyanın "Vostok" gəmisi qəzaya uğrayıb



Yapon dənizində Rusiyanın "Vostok" balıqçılıq gəmisi qəzaya uğrayıb.

Göyərtəsində 21 heyət üzvünün olduğu gəmi Qamova burnundan 200 kilometr məsafədə səhər saatlarında xəbərdarlıq siqnalı verdikdən sonra yoxa çıxıb. Rusiya Fövqəladə Hallar Nazirliyinin Primorye diyarı üzrə baş idarəsinin məlumatına görə, hazırda balıqçıların axtarışı üçün helikopter göndərilib. Heyət üzvlərinin adları da açıqlanıb. Onların arasında iki azərbaycanlı-matroslar, 1972-ci il təvəllüdlü Mübariz Hüseynov və 1991-ci il təvəllüdlü Ruslan Əlizadə də var.

### Suriyadan Türkiyə ərazisinə atılan raketlər nəticəsində 2 nəfər həlak olub



Suriya ərazisindən Türkiyənin Kilis şəhərinə atılan raketlər nəticəsində 2 nəfər ölüb, 11 nəfər yaralanıb. Həlak olanlardan biri Türkiyədə sığınacaq tapan suriyalıdır.

PYD-PKK terrorçu birləşməsi tərəfindən atılan raketlərdən biri məscidin kümbəzini deşərək içəri düşüb. Yaralılardan altısının vəziyyəti ağırdır.

### İran: neft məhsullarının saxlandığı anbarda yanğın baş verib



İranın cənubundakı Bəndər-Abbas şəhərində neft məhsullarının saxlandığı anbarda yanğın baş verib.

Şəhərin 35 kilometr qərbindəki "Geransang Mehr" zavodunda baş verən yanğında alovun böyük bir əraziyə yayıldığı açıqlanıb. Yanğın zamanı üç nəfər həlak olub, iki nəfər ağır yaralanıb. Hadisə yerinə çağırılan xilasetmə qrupları anbardakı yanğının digər binalara keçməsinin qarşısını almağa çalışırlar.

### Əfqanıstanda beynəlxalq təşkilatın ofisinə hücum nəticəsində ölənlərin sayı 6-ya çatıb



Əfqanıstanın Cəlalabad şəhərində beynəlxalq "Save the Children" təşkilatının ofisinə hücum nəticəsində ölənlərin sayı 6 nəfərə çatıb.

"Save the Children" 4 əməkdaşının həlak olduğunu təsdiqləyib. Bundan əlavə, təhlükəsizlik xidmətinin əməkdaşı və ərazidən keçən mülki şəxs də həyatını itirib.

Xatırladaq ki, yanvarın 24-də səhər saatlarında avtomobilə yerləşdirilən partlayıcı qurğu binanın girişində işə salınıb. Bundan sonra hərbi geyimdə bir qrup silahlı şəxs əraziyə daxil olub. Təhlükəsizlik qüvvələri ilə silahlılar arasında atışma 10 saat çəkib. Təşkilatın 40-dək əməkdaşı xilas edilib. Hücumda iştirak edən 4 silahlı öldürülüb. Hücumun məsuliyyətini İŞİD qruplaşmasının öz üzərinə götürdüyü bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Şəhidi olmayan torpaq müstəmləkədir

*Əsgərlərimiz Ana Vətən qarşısında öz vəzifəsini layiqincə yerinə yetirən, düşmənlə üz-üzə dayanaraq inamla vuruşur. Düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalanlar xalqın sonsuz ehtiramını qazanır.*



Saçları heç zaman ağarmayacaq, şəhid əsgər! Xalqımız hər zaman sizə borcludu. Uğrunda can verdiyiniz torpağa tapşırılırsınız. Üçrəngli bayrağımız nəşinizin örtüyü olur. Valideynləriniz sizinlə fəxr edir. Siz şəhidlik məqamındasınız. Ən layiqli ad daşıyırsınız. Təki Vətən sağ olsun! Zamanı gənc yaşlarında donan igidlərin, sənin adın hər birimizin qəlbində yaşayır.

Şəhidi olmayan torpaq müstəmləkədir. Hər birimiz Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla vuruşan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda həyatını qurban verərək ən uca zirvəyə - şəhidlik məqamına ucalanların xatirəsini anmağa həmişə borcluyuq. Çünki ərazi bütövlüyü, toxunulmazlığı uğrunda canından keçən Vətən övladları sonsuz sevgi, məhəbbət və ehtirama layiqdirlər.

Vətənpərvərlik - Vətənini, dövlətini, xalqını, millətini sevməkdir. Onun inkişafına çalışmaqdır. Vətən ürəkdə başlayıb, şəhadətlə bitər. Vətənpərvərlik Vətəninin çağırışlarına cavab verməkdir. Müstəqil Azərbaycan bir çox uğurlar, nailiyyətlər qazanıb. Vətən bizdən dəyərlərimizə sahib çıxıb onu daim zənginləşdirməyə səsləyir. Hər bir azərbaycanlı azərbaycançılıq dəyərlərinə xidmət etməyi özünə müqəddəs borc bilir. Vətəni qorumaq, daim müdafiəyə hazır olmaq hər birimizin borcudur. 20 faizdən çox ərazimiz işğal altındadır. Bu gün hər bir Azərbaycan oğlu potensial bir əsgərdir, Vətənin müdafiəçisi, keşikçisidir. Ölkəmizi inkişaf etdirmək, xain qəsdlərdən qorumaq həm də özümüzə xidmətdir. Vətən də, gələcəyin əsgərləri olacaq uşaqlar da bizimdir. Biz hər birimiz odu-ocağı, Vətəni sevməyi və sevdirməyi bacarmalıyıq. Mən də müstəqil Azərbaycanın övladı olmaqdan qürur duyuram. Bu dövləti sevməyi, sevdirməyi, təbliğ etməyi özümə ən böyük borc bilirəm.

Şəhidlərimiz Vətənini sevdi. Bu sevgi müqəddəs sevgidir. Bu sevgi sipərə dönən sinədir, bu sevgi Vətən yolunda qurban verilən "can"dır.

Şəhidlər ölməz, yaddaşlarda, əqidələrdə yaşayarlar. İllər keçsə də, unudulmaz, daim anılarlar. Şəhidlər torpağa deyil, ürəklərə tapşırılan sevgidir. Biz azadlığımızın, istiqlalımızın carçısı olan şəhidləri ən səmimi hiss və duyğularla anırıq!

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun jurnalistika fakültəsinin**
**I kurs tələbəsi**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan ordusunun zabitləri Qarabağda xidmətdən yayınmaq üçün hər üsula əl atırlar. Müəyyən məbləğ ödəməklə işğal olunmuş ərazilərdə xidmətdən yayınmaq işğalçı orduda artıq adi hala çevrilib. Bu günlərdə Ermənistan ordusunda növbəti rüşvət qalmaqalı yaşanıb.

İşğal altında olan ərazilərimizdə yerləşən hərbi hissələrdən birində xidmət edən kapitan Arayik Hovanesyan rüşvət verərək xidmət yerini dəyişib.

Ermənistanlı zabit belə bir vasitə ilə qardaşını da işğal altında olan ərazidə xidmətdən uzaqlaşdırmağa çalışıb. Kapitan A.Hovanesyan hazırda Dağlıq Qarabağda xidmətdə olan yüksək vəzifəli tanışına rüşvət verməklə, Madagiz yaşayış məntəqəsində kəsfiyyat xidmət rəisi vəzifəsində olan qardaşı bas leytenant Artur Hovanesyanın da xidmət yerini dəyişdirməyə cəhd edib. Lakin məsələnin üstü açıldıqdan sonra hər iki qardaş və vasitəçilik edən şəxs rüşvətalma maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilib.

* * *

Ermənistan ordusunun zabitləri tərəfindən tabeçilikdə olanlara qarşı kobud rəftar, təhqirlər işğalçı orduda cinayətlərin durmadan artmasına səbəb olur. İstər ermənistanlı sosial şəbəkə istifadəçilərinin, istərsə də valideyn məktublarında erməni zabitlərin nizamnamədənkənar münasibətlərindən bəhs edən yetərincə məlumatlar var.

Bu günlərdə daha belə bir xəbər sosial şəbəkələrdə paylaşılıb. Məlumatda bildirilir ki, işğal altında olan ərazilərimizdə yerləşdirilən düşmən ordusunun hərbi hissələrindən birində Valeri Mkrtçyanla ony təhqir edən zabit arasında dava baş verib. Təhqirlərə məruz qalan V.Mkrtçyanın zabit tərəfindən döyüldüyü də bildirilir.

* * *

Yanvarın 19-da təhqirlərə məruz qalan artilleriya batareyasının əsgəri Marat Sarkisyan və Artem Geğamyan arasında mübahisə baş verib. Əvvəl mübahisə edənləri xidmət yoldaşları sakitləşdirə bilsələr də, sonradan M.Sarkisyanın A.Geğamyanı güllələyərək yaraladığı məlum olub.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

# "Qranat VA-1000" pilotsuzu



"Qranat VA-1000" pilotsuz uçuş aparatının quraşdırılmasına 2012-ci ildə Smolensk şəhərində başlanıb. Aparatın gövdəsi karbon lifindən ibarətdir. Məhz buna görə də maşının tavanı 4000 metrdən çoxdur. Pilotsuz uçuş aparatının sürəti saatda 65-70 kilometr, uzaqlığı isə 40 kilometrə qədər çatdırıla bilər. "Qranat VA-1000" pilotsuz uçuş aparatından müxtəlif taktiki tapşırıqların yerinə yetirilməsində istifadə oluna bilər. Onun əsas rolu müxtəlif hava şəraitində qoşun bölmələri arasında rabitə əlaqəsini təmin etməkdən ibarətdir. "Qranat" bazası əsasında retranslyator 50 kilometrlik məsafədə və 100 metrlik hündürlükdə davamlı şəkildə məlumatları radiokanalla ötürməyə qadirdir. Aparatdan 18-20 kilometrlik radiusda ərazi kəşfiyyatını aparmaq üçün istifadə edilə bilər. "Qranat VA-1000" pilotsuz uçuş aparatından yanğınsöndürmə təhlükəsizlik xidməti, radiasiya nəzarət xidməti, informasiya agentliyi, topoqraf-geodezlər (kartoqraflar), arxitektorlar, ekoloqlar, kinematoqraflar və s. istfadə edə bilər.

Daha sonra aparat vasitəsilə məlumatların toplanması, informasiya mübadiləsi, təftiş etmə, müşahidə də aparmaq olar. Aparatın çəkisi 2650 qrama qədərdir. Onun kreyser sürəti saniyədə 15,0 metr, tez qalxma sürəti isə saniyədə 7,5 metrdir. Maksimal yük çəkisi 1200 qram, uçuş çəkisi 5550 qram və qabariti 1030 millimetrdir. Uçuş müddəti 88 dəqiqəyə qədərdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Neftçi İdman Klubu"nun kikboksçuları respublika turnirində 11 medal qazanıblar



Hövsan Olimpiya İdman Kompleksində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş kikboksinq üzrə respublika turniri keçirilib.

Yeniyetmələr və gənclər arasında təşkil olunan yarışda "Neftçi İdman Klubu"nun idmançıları 11 medal (3 qızıl, 4 gümüş, 4 bürünc) qazanıblar.

Klubun yetirmələrindən Elmir Alı (31 kq-dan yuxarı), Qalib Hüseynli (42 kq) və İsgəndər Hacıyev (75 kq) bütün döyüşləri qələbə ilə başa vuraraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

## Azərbaycan yığması İran futzalçıları ilə ikinci oyununu keçirib



Futzal üzrə Azərbaycan milli komandası yanvarın 24-də Bakı İdman Sarayında İran yığması ilə ikinci dəfə yoldaşlıq oyunu keçirib.

Görüş 1:4 hesabı ilə rəqibin xeyrinə başa çatıb.

Oyunda komandamızın yeganə qolunu Ramiz Çovdarov vurub.

Xatırladaq ki, bu komandalar arasında yanvarın 23-də Bakı İdman Sarayında keçirilən ilk yoldaşlıq oyunu 3:3 hesabı ilə başa çatıb.

Qeyd edək ki, Azərbaycan millisi yanvarın 30-dan fevralın 10-dək Sloveniyada keçiriləcək Avropa çempionatının final mərhələsində iştirak edəcək. Joze Alesio Da Silvanın rəhbərlik etdiyi kollektiv qrup oyunları çərçivəsində fevralın 2-də Fransa, fevralın 4-də isə İspaniya yığması ilə qarşılaşacaq.

## Yeniyetmə samboçular arasında Bakı birinciliyinə yekun vurulub



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Hövsan Olimpiya İdman Mərkəzində 2000-2001-ci il təvəllüdlü yeniyetmələr arasında sambo üzrə Bakı birinciliyi keçirilib.

Birincilikdə 10 çəki dərəcəsi üzrə 141 idmançı mübarizə aparıb.

Yarışda Orxan Qəhrəmanov (48 kq), Hacalı Qasımov (52 kq), Sübhan İsrafilli (56 kq), Əjdər Əsədov (60 kq), Vüsal Mürsəqulov (65 kq), Adil Adilzadə (70 kq), Ağami Məmmədov (75 kq), Vüqar Ağayev (81 kq), Xəlil Cəlilzadə (87 kq) və Elvin Tarverdiyev (87 kq-dan yuxarı) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

İlk üç yeri tutan idmançılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə təltif olunublar.

**AZƏRTAC-ın materialları əsasında**

---

Leytenant Sarıyev Ramil Rafiq oğluna 2015-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizir Məmmədov Həmid Ədalət oğluna 2012-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizir Sadıqov Rəşad Rəşid oğluna 2012-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizir Gülüşov Həbib Ruzi oğluna 2013-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizir Bədirli Ceyhun Farras oğluna 2015-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 28
Nüsxə 3550